*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:25.04.2025*
*Kabul tarihi |Accepted:30.08.2025*
*Yayın tarihi |Published:25.10.2025*

**Solmaz Məhərrəmova**

***https://orcid.orq/0009-0007-8975-6566***
*Doctor of Historical Sciences, Senior Researcher Institute of History and Ethnology named after A.A. Bakikhanov Azerbaijan National Academy of Sciences (ANAS), Azerbaijan, solmaz-xanim@mail.ru*

***Atıf Künyesi | Citation Info***

Məhərrəmova, S. (2025). Zəngəzurlu Xosrov bəy Sultanov və Baba Məmmədovun Türkiyədə mühacirət həyatı və fəaliyyəti (1920–1943) *Akademik Tarih ve Düşünce Dergisi*, *12* (5), 209-225.

# Zəngəzurlu Xosrov Bəy Sultanov və Baba Məmmədovun Türkiyədə Mühacirət Həyatı və Fəaliyyəti (1920–1943)

***Xülasə***

*Məqalədə Azərbaycan dövlətçilik tarixində mühüm rol oynamış Zəngəzur mahalının görkəmli övladları – Azərbaycan Xalq Cümhuriyyətinin (1918–1920) qurucularından biri Xosrov bəy Əli Paşa bəy oğlu Sultanov (1879–1943) və Cümhuriyyət Parlamentinin ilk millət vəkili Baba Məmmədovun (1887–1974) həyatı və fəaliyyəti araşdırılır. Əsərdə erməni daşnak dəstələrinin 1905–1906-cı illərdə və sonrakı dövrlərdə bölgədə törətdikləri qırğınlar, Xosrov bəy Sultanovun 1919-cu ildə Qarabağın general-qubernatoru təyin olunması və onun Zəngəzurla Qarabağda sabitliyin təmin edilməsindəki xidmətləri təhlil olunur. Bundan əlavə, hər iki şəxsiyyətin 1920-ci ildən sonra Türkiyədə mühacirət həyatı, "Qafqaz İntiqam Qartalları" adlı gizli təşkilatdakı fəaliyyəti, təşkilatın proqramı, bolşevik–daşnak rejiminə qarşı mübarizə, habelə təşkilatın iflası və üzvlərinin həbsi arxiv materialları və dövri mətbuat əsasında işıqlandırılır. Məqalə Azərbaycan Xalq Cümhuriyyəti liderlərinin milli mübarizədə əvəzsiz rolunu və tarixi irsini göstərir.*

***Açar sözlər:*** *Qarabağ, Azərbaycan Xalq Cümhuriyyəti, Mühacirət, Mübarizə, Türkiyə*

# Khosrov Bey Sultanov and Baba Mammadov of Zangezur: Exile Life and Activities in Turkey (1920–1943)

***Abstract***

*The article examines the life and activities of two prominent figures of the Zangezur region, who played an important role in the history of Azerbaijani statehood – Khosrov Bey Ali Pasha Bey oghlu Sultanov (1879–1943), one of the founders of the Azerbaijan Democratic Republic (1918–1920), and Baba Mammadov (1887–1974), the first member of parliament of the Republic. The study analyzes the massacres committed in the region by Armenian Dashnak detachments in 1905–1906 and in later periods, the appointment of Khosrov Bey Sultanov as Governor-General of Karabakh in 1919, and his services in ensuring stability in Karabakh and Zangezur. In addition, the article highlights the exile life of both figures in Turkey after 1920, their activities in the secret organization called "Caucasian Revenge Eagles," the program of this organization, their struggle against the Bolshevik–Dashnak*

**Copyright and License Statement**

***All publication and copyright of this article are held by the Journal of Academic History and Ideas / Akademik Tarih ve Düşünce Dergisi. The article is made available by the journal as open access under the terms of the Creative Commons Attribution–NonCommercial 4.0 International License (CC BY-NC 4.0) (https://creativecommons.org/licenses/by-nc-nd/4.0/). Under this license, the article may be used, reproduced, and shared in any medium for non-commercial purposes, provided that proper scholarly attribution is given; however, the original content may not be altered, transformed, or used to create derivative works. The scientific, legal, and ethical responsibility for the content of the works published in the journal rests entirely with the author(s) of the article; the journal's editors and editorial board cannot be held responsible for this content. All requests concerning commercial reuse, translation, or republication of the article must be directed to the journal's editorial board at akademiktarihvedusunce@gmail.com.***

*regime, as well as the collapse of the organization and the arrest of its members, based on archival materials and periodical press. The article demonstrates the invaluable role and historical legacy of the leaders of the Azerbaijan Democratic Republic in the national struggle.*

***Keywords:*** *Karabakh, Azerbaijan Democratic Republic, Exile, Struggle, Turkey*

## Giriş

Tarix boyu hər bir xalqın yaddaşında öz zəkası, istedadı, mübarizliyi və fəaliyyətləri ilə seçilərək silinməz iz qoymuş şəxsiyyətlər olmuşdur. Onlar yalnız yaşadıqları dövrün ictimai-siyasi həyatına təsir göstərməklə kifayətlənməmiş, həm də öz ideyaları və əməlləri ilə gələcək nəsillər üçün örnək rolunu oynamışdır. Belə şəxsiyyətlər tarixə adlarını yazmaqla qalmamış, həm də tarixin gedişatını müəyyənləşdirən simalara çevrilmişdir. Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində də bu qəbildən şəxsiyyətlər xüsusi yer tutur. Xüsusilə XX əsrin əvvəllərində mürəkkəb geosiyasi şəraitdə, Azərbaycan Xalq Cümhuriyyətinin (1918–1920) təşəkkül tapdığı və eyni zamanda erməni-daşnak silahlı dəstələrinin bölgədə soyqırımlar və talanlar törətdiyi bir dövrdə, Zəngəzur mahalının yetirmələri olan Xosrov bəy Əli Paşa bəy oğlu Sultanov və Baba Məmmədov kimi görkəmli tarixi simalar ön plana çıxmışdır. Onların mübariz fəaliyyəti, dövlətçilik prinsiplərinə sadiqliyi və milli maraqları müdafiə etmək uğrunda fədakarlıqları Azərbaycan tarixində mühüm mərhələni təşkil edir. Məqalənin tədqiqat obyekti Zəngəzur mahalının iki görkəmli övladı – Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri Xosrov bəy Sultanov və Cümhuriyyət Parlamentinin ilk millət vəkillərindən olan Baba Məmmədovun həyat və fəaliyyətidir. Tədqiqatın məqsədi onların milli dövlətçilik tariximizdəki rolunu araşdırmaq, Qarabağ və Zəngəzur bölgəsində sabitliyin qorunmasındakı xidmətlərini dəyərləndirmək, həmçinin mühacirət dövründə apardıqları fəaliyyətlərin əhəmiyyətini ortaya qoymaqdan ibarətdir. Beləliklə, əsrlər və qərinələr keçsə də, Xosrov bəy Sultanov və Baba Məmmədovun fəaliyyəti Azərbaycan xalqının tarixi yaddaşında silinməz iz buraxmış, onların irsi müasir dövrdə də milli kimliyin və dövlətçilik ideyalarının qorunması baxımından aktual olaraq qalmaqdadır.

### 1. Xosrov bəy Sultanov

Azərbaycan Xalq Cümhuriyyətinin şərəfli tarixində unudulmaz iz buraxmış, ixtisasca həkim, “İttihad” partiyasının siyasi lideri, Fətəli xan Xoyskinin 1918-ci il mayın 28-də 9 nəfərdən ibarət təşkil etdiyi I hökumətdə hərbi nazir, 1918-ci il iyunun 17-də təşkil edilmiş II hökumətdə əkinçilik naziri, 1918-ci ildə (26 dekabr) 14 nəfər üzvü olan III hökumətdə əkinçilik naziri kimi fəaliyyət göstərmiş Xosrov bəy Sultanov 10 may 1879-cu ildə Zəngəzur qəzasının Hacısamlı nahiyəsinin Qasımuşağı (indiki Laçın rayonunun Kürdhacı kəndi - S.M.) kəndində

zəmanəsinin məşhur zadəgan şəcərəsinin nümayəndəsi Əli Paşa bəy Sultanovun ailəsində dünyaya göz açmışdır.

... ‘’*Keçmiş Zəngəzur qəzasında üç Sultanovlar nəsli yaşayırdı. İndiki Laçın rayonunun Kürdhacı kəndindən olan Sultanovlar nəslən, ata-babadan mülkədar deyildilər. Xosrov bəyin babası Murad çarvadar olmuşdur. O zaman xalq arasında deyərdilər: "Hər oxuyan Molla Pənah, hər qatırçı Murad olmaz". Qatırçı Murad varlanıb, Əsəd Sultanlı bəyin qohumu ilə evlənmiş, doğma oğlu Əli Paşanı isə Əsəd Sutanlı bəyin oğlu kimi qələmə verərək, guya onun yetim olduğunu, dul anasının yanınca gətirildyini bildirmişdi. Sultanovlar maldarlıqla məşğul idilər. Zəngəzurda və Qarabağda "Hacısamlı" cinsi adı ilə məşhur olan yüzlərlə damazlıq inəklər yetişdirir, Hacısamlı meşələrində taxta zavodu açaraq qiymətli qırmızı palıd ağaclarını xaricə - Fransaya göndərirdilər*’’ (Heydərov, 2016, s. 24–25).

Xosrov bəy Sultanov əvvəlcə Şuşa şəhərində, sonra Gəncə klassik gimnaziyasında, 1903-cü ildə isə Xarkov tibb institutunda təhsil almış, həkim kimi Bibiheybətdəki neft sənayeçiləri xəstəxanasında fəaliyyət göstərmiş, özünün hazırladığı dərmanlarla xəstələri təmənnasız müalicə etmişdir. Birinci Dünya müharibəsi illərində Azərbaycandan Türkiyəyə qardaş köməyinə gedən, Qars, Ərzurum, Trabzonda erməni - daşnaklarının qətliamına məruz qalmış əhaliyə yardım göstərən, minlərlə yetim uşaq üçün Tiflisdə və Bakıda yetimxanalar açan və onlara qayğı göstərən "Müsəlman Xeyriyyə Cəmiyyəti"nin nümayəndə heyətinə başçılıq etmişdir. 1918-ci ilin 28 mayında Tiflisdə Azərbaycan Milli Şurası adından Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi Bəyannaməsinə imza atan 26 nəfərdən biri də Xosrov bəy Sultanov olmuşdur. Zaqafqaziya seyminin və Azərbaycan parlamentinin üzvü seçilmişdir.

XIX-XX əsrin əvvəllərində Rusiyada mövcud siyasi-iqtisadi böhranın kəskinləşməsi, fəhlə - kəndli çıxışlarının artması çoxmillətli imperiyanın ucqarla¬rında milli-azadlıq hərəkatının genişlənməsinə təkan verdi. Hökmranlığını qoruyub saxlamağa çalışan çar Rusiyası kütlələri inqilabi hərəkatdan yayındırmaq üçün özünə tabe olan millətlərin arasında ziddiyyət və düşmənçilik salmaq metodundan məharətlə istifadə edirdi.

Beynəlxalq imperialistlər və çar Rusiyası məqsədlərinə çatmaq üçün milli ədavəti qızışdırır, xalqların müxtəlif birlik və qurumlarını şirnikləndirib öz tərəfinə çəkir, qırğınlar törədil¬məsinə nail olurdular. Cənubi Qafqazı daim gərginlikdə sax¬lamaq, burada yaşayan xalqların hər birinin "böyük dövlət yaratmaq imkanlarının mövcudluğu" barədə xülyanı beyinlərdə yerləşdirmək həmişə Avropa dövlətlərinin, həmçinin Rusiyanın örtülü siyasəti idi (Vəliyev, 1994). Hələ 1890-cı ildə Tiflisdə siyasi fəaliyyətə başlayan "Daşnaksütyun" (İttifaq-S.M.) erməni millətçi partiyası bu ideyaya sahib çıxaraq onu əsas məqsədinə çevirdi. Partiyanın

1892-ci ildə qəbul etdiyi proqramı silahlı toqquşmalar, terror aktları, Qərb dövlətlərinin köməyi ilə “Böyük erməni dövləti” yaratmaq vəzifəsini qarşıya qoyurdu. Bu siyasətin ən ba¬riz nümunələrindən biri 1905-1906-cı illərdə baş verən qırğınlar oldu.

XIX əsrin sonlarında “Daşnaksütyun” partiyası ilə yanaşı, “Armenakan” və “Hnçak” adlı erməni terrorçu təşkilatları da fəaliyyət göstərməyə başlamışdır. Çar Rusiyası və Avropa dövlətlərinin təhriki ilə 1895–1896-cı illərdə Şərqi Anadoluda baş qaldıran erməni qiyamları yatırıldıqdan sonra həmin iğtişaşların təşkilatçıları və icraçıları Cənubi Qafqazda, xüsusilə İrəvan və Yelizavetpol quberniyalarında yerləşdirilmişdir (Shavrov, 1911). 1905-1906-cı illərdə sayları on min silahlıdan artıq olan erməni birləşmələri əvvəlcə Bakıda, sonra İrəvan şəhərində və onun ətraf kəndlərində, Eçmiədzin (Üçkilsə), Şərur-Dərələyəz və Naxçıvan qəzalarında, Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasının Gorus, Qafan və Qarakilsə (Sisian) nahiyələrində, Şuşa, Cavanşir, Cəbrayıl, Qazax, Ərəş qəzalarında, Tiflis şəhərində tarixə “erməni-müsəlman davası” adı ilə daxil olan qanlı qırğınlar törətmiş, azərbaycanlıların yaşadıqları 200-dən artıq yaşayış məntəqəsini viran qoymuşdular.

“Daşnaksütyun” komitəsinin planında əsas yeri Şuşanın işğalı tuturdu. Komitə hətta Qarabağın azərbaycanlılar yaşayan kəndlərinin ərazisindən keçməklə, Şuşa və Gəncə şəhərlərini birləşdirəcək şose yolunun inşasına 60 min pul vəsaiti ayırmışdı (Nadzhafov, 1993). 1917-ci ildə çar Rusiyasının süqutundan sonra onun ucqarında Şərq aləmində ilk demokratik dövlət – 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan edildi. Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1919-cu ilin yanvarında Qarabağın ərazisi ADR-in yurisdiksiyasına daxil edilmiş və 1822-ci ildən sonra Qarabağın adı yenidən inzibati-siyasi məna daşımağa başlamışdı.

***Şəkil 1. Azərbaycan Xalq Cümhuriyyəti IV Nazirlər Şurasının üzvləri, 1919*** (Azərbaycan Respublikası Dövlət Kino-Foto Sənədləri Arxivi (ARDKFSA).



Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra xarici dövlətlərin və sovet Rusiyasının hərtərəfli yardımı ilə Azərbaycanın əzəli torpağı İrəvanda özlərinə dövlət yaradan ermənilər şirniklənərək Qarabağı və Zəngəzuru ələ keçirmək üçün ərazi iddiaları irəli sürür, bütün bu hadisələr kütləvi qırğınlarla müşayiət olunurdu. Qarabağ və Zəngəzurda ermənilərin törətdiyi vəhşiliklərin bilavasitə şahidi olmuş ingilis hərbi müxbiri Skotland-Liddell yazırdı:

*"Ermənilərin ərazi əldə etmək hərisliyi, acgözlüyü olduqca böyükdür, onlar daha çox torpaq tutmaq istəyirlər. Bu məqsədlə də öz nizami ordularını Zəngəzur rayonunda müsəlman kəndlərinin üzərinə göndərib, sərhədlərini genişləndirmək üçün yol boyu bütün evləri dağıdır və sakinlərini qırırlar"* (Paşayev, 2010, s. 6).

1918-ci il sentyabrın 4-də, Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsindən cəmi 90 gün sonra Amerika, Fransa, İngiltərə, Yunanıstan və Rusiyanın silahlandırdıqları erməni-daşnak generalı Andranik Ozanyan Sisian rayonunda görünməmiş amansızlıqlar törətdikdən sonra quldur dəstəsi ilə Gorus şəhərinə daxil olmuş və qərargahını Gorusda möhkəmləndirmişdi. Andranik özünü "Zəngəzurun qubernatoru" elan edərək Azərbaycan türklərinin 115-dən çox, habelə kürdlərin yaşadıqları kəndləri talan edib dağıtmış, 10 mindən çox dinc insanı qətlə yetirmişdi. O, 1918-ci ilin avqust ayının sonu-sentyabr ayının əvvəllərində Şuşa şəhəsinə girmək üçün üç dəfə cəhd göstərmiş, lakin Osmanlı hərbi hissələri Andraniki qabaqlamış, ondan əvvəl Şuşaya daxil olaraq Şuşa şəhərinin müdafiəsini lazımınca təşkil edə bilmişdilər.

Andranik və yerli erməni quldurlarının başçısı Şahnəzərov Zabıx-Qaladərəsi istiqamətində hücum etsələr də, Şuşaya daxil ola bilməmişdilər (Urud, 2016). Andranikin hücum planının əsas məqsədi Qarabağda yaşayan ermənilərin arasında separatizmi geniş təbliğ etməklə Qarabağ erməniləri ilə birləşmək və bütün Zəngəzur və Qarabağın ərazisini ələ keçirmək idi. 1918-ci il noyabr ayının 16-da Andranikin silahlı dəstələri Şuşa şəhəri istiqamətində Qarabağa yeridildi və Zabux dərəsindəki 12 müsəlman kəndi ələ keçirildi. Andranikin hücumu ilə bütöv Qarabağın işğalı təhlükəsi yaranmışdı. Zəngəzurdakı qırğınlara Andraniklə yanaşı, Dəli Qazar, Njde, Hamazasp, Drastamant Kanoyan kimi qaniçən erməni zabitləri rəhbərlik edirdilər. Yaranmış çətin vəziyyətdə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 15 yanvar (29 yanvar) 1919-cu ildə Ermənistanın Zəngəzurda və Qarabağda törətdiyi cinayətlərin qarşısını almaq və ölkənin ərazi bütövlüyünü təmin etmək məqsədilə Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzalarının hüdudlarında mərkəzi Şuşa şəhəri olmaqla ADR-in tabeliyində olan Qarabağ general-qubernatorluğunu təsis etdi. Qarabağ general-qubernatorluğuna rəhbərlik Xosrov bəy Paşa bəy oğlu Sultanova tapşırıldı və bölgədəki inzibati

idarəetmə strukturları general-qubernatorluğa tabe edildi. Ermənilərin Zəngəzurda törətdikləri talanlara qarşı mübarizə məqsədilə general-qubernatorluğa kiçik qoşun hissələri də göndərildi. Qarabağ general-qubernatorluğu üçün inzibati bina Şuşa şəhərində "Difai" partiyasının "Qarabağ məclisi"nin üzvü, Şuşa real məktəbinin məzunu, mülkədar Cahangir xan Hacı Böyük bəy oğlunun (1861–1934) XVIII əsrin memarlıq abidəsi olan malikanəsi təyin edilmişdi.

***Şəkil 2. 1919–1920-ci illərdə Qarabağ general-qubernatorluğunun yerləşdiyi bina — Cahangir xan Hacı Böyük bəy oğlu Nuribəyovun malikanəsi, Şuşa*** (Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, "Cahangir bəyin evi" (inv. № 5079), foto arxivi).



Xosrov bəy Sultanov 1919-cu il fevralın 12-də Şuşaya gələrək Qarabağı erməni terrorizmindən azad etmək və separatizmi aradan qaldırmaq məqsədilə gərgin fəaliyyətə başladı, Qarabağ və Zəngəzurda vəziyyətlə tanış olmaq üçün ingilis, azərbaycanlı və erməni nümayəndələrinin iştirakı ilə 1919-cu ilin fevral ayının 15-də rəsmi müşavirə keçirərək konkret göstərişlər verdi. Xosrov bəy 1919-cu il fevralın 17-də Şuşaya gələn ingilis nümayəndələrinin rəhbərinə Yuxarı Qarabağda münaqişəni törədənlərin yerli ermənilərin deyil, Ermənistan Respublikası və "Daşnaksütyun" partiyasının olduğunu bildirərək, Andranikin dəstəsinin tərksilah edilməsi və Qarabağdan çıxarılması, qaçqınların öz əvvəlki yerlərinə qaytarılması, Ağdam–Şuşa yolunun gediş-gəliş üçün açılması məsələlərinin müzakirəsini keçirməyə təşəbbüs göstərdi (Hacıyev & Çingizoğlu, 2011). Lakin Ermənistan Milli Şurası bu təklifə qəti etiraz etdi. X. Sultanov ingilislərin nümayəndəsinə ermənilərin sülh deyil, Qarabağı Azərbaycanın tərkibindən ayırmaq istədiyini, Zəngəzuru zəbt etmək niyyətində olduğunu bildirdi və bütün bunlara baxmayaraq erməni–Azərbaycan münaqişəsini dinc yolla həll etmək məqsədini bəyan etdi (Hacıyev & Çingizoğlu, 2011). Ermənistan hökuməti X. Sultanovun general-qubernator təyin olunmasına, Qarabağ general-qubernatorluğunun yaradılmasına etiraz edirdi. Ermənistanın o dövrdə Xarici İşlər naziri olmuş S. Tiqranyan 1919-cu ilin yanvarında Azərbaycan hökumətinə teleqram göndərərək ərazi iddialarını irəli sürmüş və X. Sultanovun təyinatına ciddi etiraz etmişdir. General-qubernatorluğun yaradılması ilə bağlı Tomsonun

Ermənistan hökumətinin üzvləri ilə İrəvanda 1919-cu il martın 28-də və aprelin 6-da keçirilən müşavirələrində ermənilər narazılıqlarını bildirirdilər. İkinci müşavirədə ermənilərin etirazına (xüsusən Xatisyan) cavab olaraq Tomson demişdir: *"Sultanov ingilis zabiti Mak Mossenə tabe olacaqdır"* (Yaqublu, 2019, s. 157). Bu faktlar göstərir ki, Sultanovun fəaliyyəti yalnız hərbi və inzibati tədbirlərlə deyil, həm də diplomatik mübarizə ilə müşayiət olunmuşdur. Onun sülh yolu ilə məsələlərin həllinə çalışması, Azərbaycanın ərazi bütövlüyü uğrunda apardığı mübarizənin əhəmiyyətini daha da artırır.

***Şəkil 3. Qarabağın general-qubernatoru Xosrov bəy Sultanov (təqr. 1919)*** ( Xosrov bəyin nəvəsi İradə Muradovanın şəxsi arxivi. Şəklin surətini bizə verdiyi üçün İradə Muradovaya təşəkkür edirik).



X.Sultanov general-qubernator vəzifəsinə başlayanda bölgədə acınacaqlı durum var idi. *"Onun 1919-cu il fevral ayının 15, 16 və 17-də qəza rəisləri və ictimai xadimlərinin iştirakı ilə keçirdiyi ümumbölgə müşavirəsində məlum oldu ki, indiyədək Zəngəzurda 166 kənd dağıdılmış, onların əhalisinin 30 faizi məhv edilmişdi. Bu müşavirədə Andranikin silahlı dəstəsinin bölgədən cıxarılması qəti olaraq qərara alınmışdı"* (Yaqublu, 2019, s.158). 1919-cu ilin iyununda X.Sultanovun komandanlığı ilə keçirilən əməliyyat zamanı Şuşaya gizli yolla silah aparan Erməni Milli Şurasının üzvləri həbs edilərək Qarabağın ərazisindən çıxarıldı (Mahmudov & Şükürov, 2005, s. 49).

Üzeyir bəy Hacıbəyli 24 iyun 1919-cu il tarixli "Azərbaycan" qəzetində Xosrov bəyin haqqında yazırdı:

*"Həqiqətən, Xosrov bəy Qarabağ üçün ən münasib bir rəisdir. Qarabağ həyatına tamamilə aşna olan bu zat sağlam bir vücuda malik olan kimi, sağlam və salamat politika yeridən və təht idarəsinə tapşırılmış olan ümum mənafeyini xüsusi surətdə nəzərdə tutan bir zatdır. Ermənilər Qarabağda qəsdən süni iğtişaşlar çıxarmaqla Qarabağ general-qubernatorunu baş komandanlıq gözündə ləkələmək istəyirlər. Əgər Qarabağ müsəlmanları arasında böyük və layiqli bir nüfuza malik olan və erməni cəmaəti tərəfindən dəxi möhtərəm*

*sayılan Xosrov bəy Qarabağın hökuməti başında olmasa idi, burası Azərbaycanın cənnəti hesab olunan bu yer çoxdan bəri cəhənnəmə dönüb qətli-qital ocağı olmuşdu"* (Nəzirli, 2019, s. 18).

1920-ci il martın 21-dən 22-nə keçən gecə - Novruz bayramı axşamı erməni-daşnak qoşun birləşmələri Xankəndində yerləşən Cavanşir piyada alayının kazarmalarına qəfləti basqın edərək Əsgəran keçidini bağlamış, bu yeganə keçidi kəsməklə Qarabağın dağlıq hissəsində yaşayan əhalinin düzən Qarabağla bütün əlaqələrini kəsməyi hədəfə almışdılar. X.Sultanov və Həbib bəy Səlimovun komandanlığı ilə erməni generalı Dronun qoşunlarına qarşı gedən bu ağır döyüşdə könüllü müdafiə dəstələri ermənilərin təcavüzünü dəf edə bilmişdilər. İngilis hərbi jurnalisti S.Liddell həmin il mart ayının 22-də müsəlmanların ən əziz Novruz bayramı günü bütün Qarabağda ermənilərin qaldırdıqları qiyam və qəfil hücumların bir daha erməni xəyanətinin bariz nümunəsi olduğunu qeyd edirdi. O, 1920-ci il martın 30-da qələmə aldığı "Qarabağ erməniləri" adlı məqaləsində və həmin ilin fevral ayının 21-də buraxılmış "Qrafik" jurnalının redaktoruna ünvanladığı etiraz məktubunda yazırdı:

*"Tiqran Nazaryan adlı şəxs öz yazısında inandırmağa çalışır ki, Qarabağın siyasi cəhətdən Ermənistana qatılmasını sübut edən fakt odur ki, guya Qarabağdakı əhalinin 198 min nəfəri erməni, 80 min nəfəri isə müsəlmanlardır. Bu, ağ yalandır. Bu sahədə böyük nüfuz sahibi və dəqiq hesablamalar müəllifi olan professor Şepotyevə görə, Qarabağda 415 min müsəlman və 170 min erməni var"* (Paşayev, 2010, s. 6).

Qarabağ general-qubernatorluğunun təşkili Azərbaycan Cümhuriyyəti tarixinin şanlı səhifələrindən biri olmuşdur. Dörd qəzanı əhatə edən general-qubernatorluğun səmərəli fəaliyyəti nəticəsində Qarabağda və onun ətraf bölgələrində müvəqqəti olsa da, erməni separatçılığına son qoyulmuş, Azərbaycanın ərazi bütövlüyü, habelə demoqrafik durumu qorunub saxlanılmışdır. Təsadüfi deyil ki, həmin dövrdə Yuxarı Qarabağ erməniləri də öz təşəbbüsləri ilə qurultay çağıraraq Azərbaycan Respublikasının tanınması haqqında qərar qəbul etmişdilər. S. Liddellin yazdığına görə, öz daşnak rəhbərləri tərəfindən qızışdırılaraq Azərbaycana qarşı çıxış edən sadə ermənilər də sülhə razı idilər. O, yazırdı:

*"Onlar (ermənilər) mənə deyirdilər ki, əvvəllər Şuşada və Qarabağda heç zaman bu qədər sakitlik və qayda-qanun hökm sürməmişdi. Ermənilər sərbəstcə şəhərin tatar (azərbaycanlı – A.P.) hissəsinə, tatarlar (azərbaycanlılar – A.P.) isə heç bir qorxu hiss etmədən şəhərin erməni hissəsinə gəlirlər"* (Paşayev, 2010, s. 6).

1920-ci il aprelin 27-dən 28-nə keçən gecə, cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti XI Qırmızı Ordunun süngüləri altında devrildi və Azərbaycanda sovet

hakimiyyəti elan edildi. Winston Churchill sonralar xatirələrində bu hadisəyə toxunaraq yazırdı:

*“Cənubi Qafqaza daxil olmuş 20 minlik Britaniya ordusunun yardımı ilə Gürcüstan, Ermənistan və Azərbaycan tam müstəqil olmalı idi və bu müstəqil dövlətlər bolşeviklərin İrana və Türkiyəyə gözlənilən müdaxiləsinin qarşısında durmalı idilər. Lakin Sovet Rusiyası qarşısında müdafiəsiz qalan, güclü dövlətlərdən dəstək görməyən hər üç müstəqil dövlət süquta uğradı. Bununla da Azərbaycanın ilk müstəqil respublikası devrildi”* (Churchill, 2016, s. 106).

Rusiya işğalından sonra 1920-ci il mayın 1-də Xosrov bəy Sultanov Şuşa şəhərində Qarabağ Hərbi İnqilab Komitəsini yaradıb onun sədri oldu. X.Sultanov 1920-ci il mayın 10-da Şuşadan Bakıya gəldi və bununla bağlı ona başçılıq etdiyi Müvəqqəti Qarabağ İnqilab Komitəsinin 50 saylı mandatı verildi. Bakıya gəldikdən iki gün sonra - mayın 12-də 519 saylı həbs kağızı əsasında azadlıqdan məhrum edildi (Yaqublu, 2019). Sonradan onun həbsdən azad olunması haqqında müxtəlif versiyalar irəli sürülmüşdü. Bəzi məlumatlara görə böyük qardaşı Sultan bəy Sultanovun onun həbsxanadan qaçırılmasını təşkil etməsi, digər məlumatlarda isə keçmiş tələbə yoldaşı Nəriman Nərimanov və Ç.İldırımın köməkliyi sayəsində həbsdən azad olması göstərilir.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra bolşeviklərin təqiblərinə məruz qalan Xosrov bəy Sultanov Avropaya mühacirət etmiş, sonrakı həyatı Türkiyə, Almaniya, Fransa ilə bağlı olmuşdur. Xosrov bəy Sultanov və digər Cümhuriyyət mücahidlərinin sonrakı mühacir həyatı və fəaliyyəti haqqında tədqiqatçı-alim, Türkiyənin Ərzurum Atatürk Universitetinin professoru Ali Kafkasyalı Qars Milli Əmniyyət Xidmətləri Rəisliyinin, Cümhuriyyət prokurorluğunun arxivlərindən materiallar toplamış, atası - əslən Qazax mahalının İkinci Şıxlı kəndindən olan, 1921-ci ildə sovet hökumətindən qaçaq düşüb ömrünün sonuna qədər hökumətə tabe olmayan, onunla eyni taleyi bölüşən qaçaq dəstəsi ilə bərabər Türkiyəyə keçib Qars əyalətində məskunlaşan Aloy Hacıdan, habelə hələ XX əsrin 80-ci illərinə qədər həyatda olmuş həmin şəxslərdən dönə-dönə eşitdiyi xatirələri maqnitofon lentinə köçürmüş və həyat hekayələri üzərində qurulmuş “Kartallar sınır tanımaz” adlı sənədli- tarixi-publisistik romanını yazmışdır (Kafkasyalı, 2020). Həmin faciəli dövrdə Almaniyanın Berlin şəhəri sovet zülmündən qaçan qafqazlı aydınların sığınacaq şəhərinə çevrilmişdi. Bu aydınlardan biri də gizli adı Əli Əhmədoğlu olan, Azərbaycan hürriyyət mücadiləsinin öndəri Məmmədəmin Rəsulzadə idi. Məmmədəmin Rəsulzadə Qafqaz türklərinin sovet işğalından sonra dağılıb ərimələri və fürsət düşəndə təkrar ayağa qalxmaları üçün təşkilatlanma məsələsini irəli sürmüşdü. O, təşkilatlanma işinə əksəriyyəti Türkiyənin Qars bölgəsində

toplaşmış qaçaqlardan başlamağı tövsiyə edirdi. M.Rəsulzadə bu vəzifəni "hər biri özünə görə bir sipərə çəkilmiş, gözünü budaqdan ayırmayan qartal balalarını oyandırmağı" ən çox güvəndiyi əqidə məsləkdaşı doktor Xosrov Sultanova həvalə etmişdi (Kafkasyalı, 2020). Daim izləndiyi üçün Xosrov bəy Sultanovun Qarsa gəlib qaçaqlarla görüşməsi çox təhlükəli idi. Digər tərəfdən sovet sərhədində, əhalisi çox da qələbəlik olmayan Qars şəhərinə kənardan birinin gəlməsinin diqqəti çəkəcəyi kimi, görüşəcəyi adamlar da böyük ehtimalla rus casusları tərəfindən izlənmə altında olduqlarından sıxıntı yarana bilərdi. Ən doğrusu onları İstanbula çağırmaq, hər gün minlərlə müsafiri ağırlayan bu ticarət və mədəniyyət şəhərinə 15-20 kişinin gəldiyinə diqqəti yayındırmaq olardı. Onlar İstanbulda Bosforun Anadolu yaxasında gözdən uzaq bir otelin zirzəmi qatındakı kiçik salonda bir araya gəlmiş və Xosrov bəy Sultanovun başçılıq etdiyi "Qafqaz İntiqam Qartalları" adlı gizli təşkilat yaratmışdılar (Kafkasyalı, 2020). Təşkilata düşərgə yeri kimi Qars yaxınlığındakı Buğatəpə yaylağı seçilmişdi. Təşkilatın maliyyə vəsaiti və silahlarla təchiz edilməsi M.Rəsulzadə tərəfindən həyata keçirilirdi. Pul və silahların Almaniyadakı İstanbul səfirliyi vasitəsilə gəmilərlə İskəndərun limanına, ordan da yük maşınlarında Karakösəyə göndərilməklə, Buğatəpə yaylağına çatdırılması planlaşdırılmışdı (Kafkasyalı, 2020). Təşkilatın üzvləri arasında Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin ilk millət vəkili, qubadlılı Baba Məmmədov, Qori Seminariyasının məzunu, qazaxlı Göyəzən, Qaçaq Xram, Borçalı bölgəsinin Nəcməddinli kəndinin Hacı Bayramoğullular nəslindən olan, Tiflis gimnaziyasının məzunu Xozeyin bəy, onun qardaşı Nağı bəy, Hacıxəlil, İsmayıl Bala, həm çar hökuməti, həm də Azərbaycan Xalq Cümhuriyyəti dönəmində polis orqanlarında çalışmış Qiyas bəy Şıxlinski, Aloy Hacı və digər məşhur şəxslər olmuşdur. Qiyas bəy Şıxlinskiyə həm də "Qafqaz İntiqam Qartalları" təşkilatının müfəttişi vəzifəsi həvalə edilmişdi (Kafkasyalı, 2020, s. 19). Əli Əhmədoğlu (Məmmədəmin Rəsulzadə - S.M.) İstanbuldakı toplantıdan dərhal sonra Almaniyadan İsgəndəruna 40 adamlıq silah-sursat və 40 dəst geyim, məişət ləvazimatları, səhra-yataq kisəsi və s. göndərmişdi. Lakin hələ "Qafqaz İntiqam Qartalları" gizli təşkilatının İstanbulda ilk toplantısına qatılan, sirr saxlayacaqlarına söz verib, silah və Qurana əl basıb and içən, əslində Qarsdakı sovet orqanları ilə əməkdaşlıq edən üç nəfərin (Borluqlu, Zavodlu və Qarabağlı Həmzə) xəyanəti nəticəsində təşkilatın fəaliyyətinə son qoyulur. Rəsmi Moskvadan Ankaraya ünvanlanan:

*"Qarsın Buğatəpə yaylağında yuvalanan qaçaqların silahlı bir təşkilatının ölkəmizə qarşı hücumlar təşkil edəcəyi bilgisi tərəfimizə çatdırılmışdır. Almaniyadan göndərilən silahlar təşkilatın mərkəzinə yetişmək üzrədir. Təfsilat Ankara Böyük elçiliyimizdə mövcuddur.*

*Hökumətimizə gəlişmələr haqqında bilgi verilməsi ərz və rica olunur..."* şəklindəki şifrəli teleqram hər şeyin alt-üst olmasına kifayət etmişdi (Kafkasyalı, 2020, s. 40).

Moskvanın xəbərdarlığından sonra Ankara hərəkətə keçmiş, təşkilatın bir çox üzvləri həbs edilib istintaqa cəlb olunmuşdular. İstintaqı Milli Əmniyyət Rəisliyinin təlimatı ilə Qars Milli Əmniyyət Rəisliyində Cümhuriyyət prokurorluğu, jandarm və polis aparırdı. Aparılan dindirmələrdən sonra Qaçaq Göyəzən elektrik cərəyanı verilməklə qətlə yetirilmiş, Qaçaq Xram bir kəlmə də danışıq vermədən, son sorğuya aparılarkən binanın üst qatına çıxan zaman özünü atıb öldürmüş, Aloy Hacının dindirilmə zamanı başından aldığı zərbələr nəticəsində sağ gözü görməz hala gəlmişdi. Yalnız Xosrov bəy Sultanovun Ankaraya müraciətindən sonra qaçaqlar məhkəməyə çıxarılıb mühakimə olunmuş, təşkilatın fəal üzvlərindən olan Xozeyin bəy və Nağı bəy qardaşları ölkədən çıxarılmış, digərləri isə ayrı-ayrı vilayətlərə sürgün edilmişdi. X.Sultanov baş vermiş hadisələr barədə Almaniyaya – M. Rəsulzadəyə məlumat vermişdir. Bu hadisələrdən sonra, xüsusən Göyəzən və Xramın ölümündən ruhi sarsıntı keçirərək intihara cəhd etmiş, iş yoldaşı İqbal Dərmancının köməyi ilə xəstəxanaya çatdırılmışdır. Bu hadisədən 4 gün sonra istintaq aparan prokuror X.Sultanovun dosyesini oxuyaraq heyrətə gəlmişdi. Ali Kafkasyanın kitabından: *"Prokuror Sultanovun yatdığı palataya yollandı. İntihara təşəbbüs etmənin səbəbini danışarsınızmı?"*-deyə soruşdu. X. Sultanov:

*"Vətənim Azərbaycanın işğal edilməsinə, onlarla generalımızın güllələnməsinə, insanlarımızın bir ucdan Sibirə, qumlu səhralara sürgün edilməsinə, erməni daşnaklarının Azərbaycan xalqının başında qoz qırmasına laqeyd qala bilməzdim. Ölkəmin insanları pərişan durumdadır. Çeşidli bəhanələrlə ölkəmizdə ağlı başında insan qoymadılar. Ailələr dağıdıldı, xalqımızın ümidi bizik... Qarsda qurulan təşkilatımız xəyanətə uğradı. Əmniyyətdəki sorğuda Göyəzən və Xram adlı iki igidimizi itirdik. Bir neçə arkadaşımız şikəst qaldı. O halları ilə hər an gözümün önünə gəlirlər. Onların acısına dözə bilmədim. Yanlarına gedib onlardan üzr diləmək niyyəti ilə intihar təşəbbüsündə bulundum."* Prokuror: *"Sənin quruca yaşamağın belə xalqına xidmətdir. Ölənlə ölmək olmaz. Onların ölümü sənin əzmini daha da alovlandırmalıdır. Özün deyirsən ki, xalqımızın ümidi bizik. Doğrudur, millətinin ümidi sizin kimilərdir. Sən öz canına qıyarsan, meydanı xainlərə buraxmış olmazsanmı? Lütfən, özünə qıyma. Hətta özünə yaxşı bax. Vətən sizdən çox böyük xidmətlər gözləməkdədir. Allah səni xalqına çox görməsin"* (Kafkasyalı, 2020, s. 77–78).

Xosrov bəy Sultanov xəstəxanadan buraxıldıqdan sonra Fransaya getmiş və orada Azərbaycan xəstəxanası açmışdır. O, bu xəstəxanada 1941-ci ildə alman-sovet müharibəsində yaralanmış əsgərləri müalicə etmiş, almanlara əsir düşən azərbaycanlı əsgərləri müalicə adı

altında başına toplayaraq, öz mübarizəsini gerçəkləşdirmək üçün şəhər kənarında kirayəyə götürdüyü bir fermada yerləşdirmişdir. Lakin sovet rejiminin qalın divarlarını aşmaq o qədər də asan bir iş olmamışdı. 1943-cü ildə İstanbula dönərək yeni yollar aramağa çalışmış, ömrü buna vəfa etməmişdir. Öz həyatını xalqına xidmətə sərf etmiş ictimai xadim, Zəngəzurun qəhrəman övladı Xosrov bəy Sultanov ağır mühacir həyat şəraitinə, vətənsizliyə, maddi çətinliyə, sovet casus şəbəkəsinin təqiblərinə, Azərbaycanda qalan qohum-əqrabasının həbsi və incidilməsinə dözməyərək 1943-cü il yanvar ayının 7-də, 64 yaşında İstanbulda qaldığı pansionatda ölü olaraq tapılmış, Feriköy qəbiristanlığında dəfn edilmişdir.

***Şəkil 4. Xosrov bəy Sultanovun İstanbul Feriköy qəbiristanlığındakı məzarı. Mənbə: Wikimedia Commons*** *(*Grave of Khosrov bey Sultanov.jpg).




Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan Fətəli Xan Xoyskinin qardaşı general Hüseynqulu xanın Türkiyədə yaşayan nəvəsi Kərim Mehmetzadənin Qarabağın general-qubernatoru Xosrov bəy Sultanovla bağlı xatirələrindən:

*"Xosrov bəy ailəmizin ən yaxın dostu, mənim və qardaşlarımın həkimi idi. O, 1930-cu illərdə Türkiyədə bir türk xanımla ikinci dəfə ailə qurmuşdu. Təəssüflər olsun ki, övladları olmadı. Xosrov bəy birinci həyat yoldaşı barədə heç vaxt danışmayıb.*

*... Babam Hüseynqulu xan Xoyskinin hər gün görüşdüyü Şəfi bəylə birlikdə masalarının üzərindəki xəritədən İkinci dünya müharibəsinin hücum planlarını müzakirə edərdilər. Xosrov bəy, Şəfi bəy, Mustafa bəy, Adil xan Ziyadxanlı, Sultan bəy Vəkilov və Əbdüləli bəy Əmircanov kimi partiya üzvü olmayan Azərbaycan liderləri bir yerə toplaşıb almanların Rusiyanın daxilinə, yəni Stalinqrada doğru irəliləməsini saatbasaat önlərindəki dəftərə qeyd edərdilər. Təəssüflər olsun ki, Xosrov bəy müharibənin ortalarında, Almaniyanın üstün olduğu bir vaxtda, 1943-cü ildə vəfat etdi. Mənim 7-8 yaşım olanda Xosrov həkim vəfat etdi"* (Əhmədov, n.d.).

## 2. Baba yüzbaşı (Baba Məmmədov)

1887-ci ildə indiki Qubadlı rayonunun Fərcan kəndində Sarallı-Sofulu-Ucənis elinin yüzbaşısı Məhəmməd Yaquboğlunun ailəsində dünyaya gəlmişdir. 6 yaşında anasını, 12 yaşında atasını itirmişdir. Dayıları Türkiyəyə köçüb gedəndə onun yetim qalmış 2 kiçik qardaşını da özləri ilə aparmış, Baba ilə bacısını isə dayıları – Zəngəzurun müftisi Molla Kərim Əfəndi himayəsinə götürmüşdür. Molla Kərim Əfəndi İraqın Nəcəf şəhərində ali dini təhsil almış, bir çox elmlərə vaqif olmuşdu. Bacısı oğluna vaxt ayırmağa çox imkanı olmadığından onu Hal kəndində savadlı adam olan Kosa Əfəndinin yanına aparır. Ancaq Babanın iti zehni, dərslərdə irəli getmə həvəsi, uşaqlıqdan hökmlü, qürurlu olması Kosa Əfəndini narahat edir və o, sifariş göndərir ki, Baba ilə məşğul olmaq mənlik deyil, gəlin uşağınızı aparın. Ucənis ermənisi Mirzə İvan Babaya rus dilini öyrətmiş və yaxın ətrafındakılara həsədlə deyərmiş ki, bu uşaqda çox güclü baş var, bunun gələcəyi olacaq (Nərimanoğlu, 2008). 17 yaşında olarkən Fərcan kənd sakinləri Baba Məmmədovu yüzbaşı seçirlər və 7 erməni kəndi də ona tabe olur. Ətrafına cəsur insanları toplayan Baba yüzbaşı kəndlərdəki əhalini erməni quldurları Njde və Dronun törətdikləri talan və qətliamlardan, silahlı basqınlardan xilas edərək xüsusi igidlik göstərmişdir. Ermənilər bu qorxubilməz yüzbaşıdan qurtulmağın yolunu axtararaq, bir neçə dəfə aradan götürmək planı qursalar da, cəhdləri boşa çıxır. Onların "Baba-toba" – yəni *Baba ilə qurtardıq* sözləri Babanın da qulağına çatır (Nərimanoğlu, 2008). Fərcan kəndinə gələn Nuru Paşa onunla tanış olur, dəstəsinin intizamını çox bəyənir, onu daha da böyütməyi tapşıraraq, hətta hərbi tapşırıqlara çağıracağını və Zəngəzurun müdafiəsi üçün xeyli silah yardımı göstərəcəyini vəd edir. Baba Məmmədov 1918–1920-ci illərdə Azərbaycan Demokratik Respublikası Parlamentinə Xosrov bəy Sultanovla birlikdə (Aran Qarabağdan Xosrov bəy Sultanov, Yuxarı Qarabağdan Baba Məmmədov) deputat seçilir.

***Şəkil 5. Azərbaycan Demokratik Respublikası Parlamentinin deputatı Baba Məmmədov (təx. 1918–1920 dövrü). Mənbə: Wikimedia Commons*** (Baba Mammədov portrait.jpg).



XI Qırmızı ordu Azərbaycanı işğal etdikdən sonra Zəngəzura – Qubadlıya dönən Baba Məmmədov 1920–1924-cü illərdə orada polis rəisi vəzifəsində çalışır. Baba Məmmədov polis rəisi işləyərkən Qubadlının Əliyanlı kəndində yeni hökumətdən narazı qalan dağ vüqarlı neçə-neçə igid silaha sarılıb etiraz səsini ucaltmışdı. Bu dəstələrdən birinin başında igidlikdə ad çıxarmış Əliyanlı Qaçaq Qabil dururdu. Əks cəbhələrdə olmasına baxmayaraq Baba və Qabil heç vaxt bir-birlərini ələ verməmiş, bir-birlərinə silah çəkməmişdir. Bu dəstəni zərərsizləşdirmək üçün Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi Mircəfər Bağırov Qubadlıya gələrək, B. Məmmədova həmin qaçaqları məhv etmək göstərişi verir. Baba Məmmədov Əliyanlı qaçaqlarına qarşı əməliyyatı məsləhət bilmir, danışıqlarla onları dağdan endirəcəyini vəd edir. Lakin M. C. Bağırovla Bakıdan gələn dəstə Padar kəndində Qaçaq Qabilin dəstəsinin 17 üzvünü tələyə salaraq qollarını bir-birinə bağlayıb kəndin meydanına gətirir, heç bir istintaq aparılmadan M. C. Bağırov öz əlləri ilə onları güllələyir.

Bu hadisədən sonra – 1924-cü ildə Mircəfər Bağırov Baba Məmmədovu vəzifəsindən kənarlaşdırmış, elə həmin ildə yeni tikiləcək məktəbin tikintisi ona tapşırılmışdı.

1929-cu ildə “antisovet fəaliyyətdə” ittiham olunan Baba Məmmədov Şuşa həbsxanasına aparılmış, ilk məhkəmədə ona güllələnmə qərarı çıxarılmış, lakin Ali Məhkəmədə güllələnmə cəzası 10 illik sürgün cəzası ilə əvəzlənmişdi (Kafkasyalı, 2020). Şuşa həbsxanasında vaxtilə B. Məmmədovun idarəçiliyində milis nəfəri işləmiş, sonradan isə Qubadlı Rayon İcraiyyə Komitəsinin sədri təyin olunmuş Hüsü Hacıyev onu həbsxanadan çıxarıb Laçına, oradan isə doğma Fərcan kəndinə yola salmışdı. Hüsü Hacıyevin köməyi ilə həbsdən azad edilən B. Məmmədov 20 iyun 1930-cu ildə Arazın o tayına, oradan da Türkiyəyə keçmişdir. Lakin orada da çox qalmayıb 4 iyul 1930-cu ildə sovet dövlət orqanlarında xidmət etməyi qərara almış, ölkəyə qayıtdıqdan sonra Bayıl həbsxanasına salınaraq əvvəlki həbs-istintaq işi də əlavə edilməklə istintaqa cəlb olunmuşdur. Hətta Mircəfər Bağırov Bayıl həbsxanasına gələrək – “Məmmədov, hələ sağsanmı?” sualı ilə şəxsən özü Baba Məmmədovun dindirilməsini aparmışdır. Baba Məmmədov 1931-ci ilin noyabr ayının əvvəllərinədək Bayıl həbsxanasında saxlanılmış, güllələnməli olduğu günə 3 gün qalmış heç gözləmədiyi halda həbsxanadan azad edilmişdir. Bu işdə isə ona 1918-ci il Zəngəzur hadisələrində yaralanan və Baba Məmmədovun onu öz evinə apararaq müalicə etdirdiyi, indi isə Bayıl həbsxanasının rəisi olan dostu kömək etmişdi (Kafkasyalı, 2020). Daha bolşeviklərlə eyni ölkədə yaşamağın mümkün olmadığını görən Baba Məmmədov gizlicə Fərcan kəndinə gedərək ailəsi ilə görüşüb Təbrizə gəlmiş, bir müddət İranda yol və körpü inşa edən bir alman firmasında işləmiş, sonra isə orada bir dükan açaraq ticarətlə məşğul olmuşdur. Burada da sovet gizli təşkilatı tərəfindən izləndiyini duyunca

Türkiyəyə mühacirət etmişdir. Türkiyənin İstanbul şəhərində Xosrov bəy Sultanov və Nuru Paşa ilə yenidən görüşmüş və onlarla sıx əlaqə saxlamışdır (Qubadlı: Qədim Azərbaycan torpağı Zəngəzurun qapısı, 2013). Baba Məmmədov Xosrov bəy Sultanovun rəhbərlik etdiyi "Qafqaz İntiqam Qartalları" təşkilatına üzv olmuş, öz xalqının bolşevik–daşnak zülmündən azad edilməsi uğrunda fədakarlığını əsirgəməmişdir. Təşkilatın iflasından sonra Türkiyənin Bayburt kəndinə sürgün edilmiş, sürgündən geri döndükdən sonra Qarsa gəlmiş, Qars və onun ətrafındakı kənd və yaylaqlara basqın edən daşnak yaraqlılarına qarşı mübarizə aparan mülki-müdafiə təşkilatında işləmiş, erməni quldurlarının müntəzəm hücumuna məruz qalan "Nəbi yurdu" yaylaq-kəndinin müdafiəsində əsl igidlik göstərmişdir. O, 1974-cü ildə İstanbulda dünyasını dəyişmiş və orada dəfn edilmişdir.

## Nəticə

Hər bir insan, hər bir millət, hər şeydən əvvəl öz xalqının mənəvi sərvətlərinə sahib çıxmalı, öz mədəniyyətini, mentalitetini və milli-mənəvi dəyərlərini qorumalı, gələcək nəsillərə miras olaraq ərməğan etməlidir. Azərbaycan Cümhuriyyətinin qurulmasında əvəzsiz xidmətləri olan tarixi şəxsiyyətlər – Zəngəzur mahalının cəsur və fədakar övladları Xosrov bəy Sultanov və Baba Məmmədov bu xalqın mənəvi sərvətinin ayrılmaz parçasıdır. Onlar bütün çətinliklərə, təqiblərə, sürgünlərə, hətta ölüm təhlükəsinə rəğmən milli mübarizədən dönmədilər. Vətən sevgisini, xalqına sədaqəti və azadlıq uğrunda mübarizəni hər şeydən üstün tutaraq, iradə və mətanət nümunəsi göstərdilər. Onların həyat yolu milli istiqlal idealına sədaqətin, xalq yolunda fədakarlığın ən parlaq təcəssümüdür. Bu gün biz müstəqil və suveren Azərbaycan dövlətində yaşayırıqsa, bu, məhz onların və onlarla bərabər minlərlə şəhid və mücahidin çəkdiyi əzabların, fədakarlıqlarının bəhrəsidir. Buna görə də Xosrov bəy Sultanovun və Baba Məmmədovun ömür yolu yalnız tariximizin bir səhifəsi deyil, həm də milli kimliyimizin, dövlətçilik ənənəmizin və vətənpərvərlik ruhumuzun canlı yaddaşıdır. Onları unutmaq olmaz. Əksinə, bu böyük şəxsiyyətlərin həyat və fəaliyyətini daha geniş şəkildə öyrənmək, gənc nəslə təqdim etmək və milli yaddaşımızda daim yaşatmaq hər birimizin müqəddəs borcudur.

## Ədəbiyyat

Azərbaycan Respublikası Dövlət Kino-Foto Sənədləri Arxivi. (1919). *Azərbaycan Xalq Cümhuriyyəti IV Nazirlər Şurasının heyəti* [Fotoşəkil]. Azərbaycan Respublikası Dövlət Kino-Foto Sənədləri Arxivi.

Azərbaycan Respublikası Dövlət Kino-Foto Sənədləri Arxivi (ARDKFSA). (n.d.).

Azərbaycan Xalq Cümhuriyyətinin süqutu. (n.d.). *ARDA*, f. 2894, s. 1, iş 4, v. 65.

Churchill, W. (2016). *Mirovoy krizis* (Vol. I, in 6 vols.). Ozon. (In Russian).

Əhmədov, H. (n.d.). *HafizTimes.com.* Retrieved from http://www.hafiztimes.com

Hacı, N. (2012). *Zəngəzurda doğuldular, Anadoluda əbədiyyətə qovuşdular.* Təhsil.

Hacıyev, Q., & Çingizoğlu, Ə. (2011). *Qarabağlı hərbçilər.* Təknur.

Heydərov, N. (2016). *Zəngəzur dağlarında.* Şərq-Qərb.

Kafkasyalı, A. (2020). *Kartallar sınır tanımaz (tarixi-sənədli roman).* Perqament.

Mahmudov, Y., & Şükürov, K. (2005). *Qarabağ: real tarix, faktlar, sənədlər.* Təhsil.

Nadzhafov, B. (1993). *Litso vraga. Istoriya armyanskogo natsionalizma v Zakavkaz'e v kontse XIX – nachale XX vv. (ch. II).* Sharg-Garb. (In Russian).

Paşayev, A. (2010, mart 12). İngilis jurnalisti Skotland – Liddell erməni məkri haqqında. *Xalq qəzeti,* s. 6.

Qubadlı: qədim Azərbaycan torpağı Zəngəzurun qapısı. (2013). *AMEA A.A. Bakıxanov adına Tarix İnstitutu.*

Şavrov, N. N. (1911). *Novaya ugroza russkomu delu v Zakavkazye: predstoyashchaya rasprodazha Mugani inorodtsam.* Russkoe sobraniye. (In Russian).

Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi. (n.d.). *Cahangir bəyin evi* (inv. № 5079) [Foto arxivi].

Urud, M. (2016). *Zəngəzur: uzaq keçmişdən müasir dövrə qədər.* Nurlar NPM.

Vəliyev, İ. Ö. (1994). *Dünya susur, tarix susmur.* Gənclik.

Wikimedia Commons. (n.d.). *Baba Məmmədov portrait* [Fotoşəkil]. (Müəllif: naməlum). https://commons.wikimedia.org/wiki/File:Baba_Mamm%C9%99dov_portrait.jpg

Wikimedia Commons. (2024). *Grave of Khosrov bey Sultanov* [Fotoşəkil]. Dr.Wiki54 (CC BY-SA 4.0). https://commons.wikimedia.org/wiki/File:Grave_of_Khosrov_bey_Sultanov.jpg

Xosrov bəyin nəvəsi İradə Muradovanın şəxsi arxivi. (n.d.).

Yaqublu, N. (2019). Xosrov bəy Sultanov – Azərbaycanın ilk Hərbi naziri, Qarabağın cəsur müdafiəçisi. *Mədəniyyət.AZ,* 3.

***Telif ve Lisans Bildirimi***

*Bu makalenin tüm yayın ve telif hakları Journal of Academic History and Ideas / Akademik Tarih ve Düşünce Dergisi'ne aittir. Makale, dergi tarafından Creative Commons Atıf-GayriTicari 4.0 Uluslararası Lisansı (CC BY-NC 4.0) kapsamında açık erişimli olarak sunulmaktadır (https://creativecommons.org/licenses/by-nc-nd/4.0/). Bu lisans kapsamında, makale uygun bilimsel atıf yapılması koşuluyla ve yalnızca ticari olmayan amaçlarla her türlü ortamda kullanılabilir, çoğaltılabilir ve paylaşılabilir; ancak orijinal içeriğin değiştirilmesi, dönüştürülmesi veya üzerinde türev eser üretilmesi kesinlikle yasaktır. Dergide yayımlanan çalışmaların bilimsel, hukuki ve etik sorumluluğu tamamen makale yazar(lar)ına aittir; dergi editörleri ve yayın kurulu bu içerik nedeniyle sorumlu tutulamaz. Makalenin ticari yeniden kullanımı, çeviri veya yeniden yayımlanmasına ilişkin tüm talepler, derginin editör kuruluna akademiktarihvedusunce@gmail.com adresi üzerinden iletilmelidir.*